# KİKO VƏ ƏL



COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE



# KİKO VƏ ƏL





Bu Kikodur.
Kikonun yanında isə onun dostu - Əli görürsən.
- Mənə belə dost– bir Əl, niyə lazımdır? - deyə Kiko soruşur.
- Tezliklə öyrənəcəksən, - deyə Əl cavab verir.

- Salam, Əl! Mən uçmaq istəyirəm, ancaq mənim qanadlarım yoxdur, – Kiko deyir.





- Oldu, Kiko, – Əl deyir.
- Mən sənin üçün təyyarə olacam. Minməyə hazır ol, mən indi uçacağam.

VUUUUUU, təyyarə uçur.

- Salam, Əl! Mən rəqs etmək istəyirəm, ancaq musiqi yoxdur, - Kiko deyir.
- Oldu, Kiko, - deyə Əl cavab verir. Mən sənin üçün musiqiçi olacağam. Mənim pianom var və barmaqlarım hər musiqini ifa edə bilər.

PLİM, PLİM, PLİM, piano çalır.





- Salam, Əl! Mən dadlı nəisə yemək istəyirəm, amma bilmirəm nə yeyim, - Kiko deyir.





- Oldu, Kiko. İndi mən sənin qənnadçın olacağam, – Əl deyir. Nə istəyirsən? Alma tortu, ya şokoladlı tort, ya ballı tort, yoxsa banan tortu? – soruşur Əl.
- Mən almalı, şokoladlı, ballı, bananlı tort istəyirəm! – cavab verir Kiko.
- NYAM, NYAM, NYAM.



- Salam, Əl! Mən “səndə-məndə” oyunu oynamaq istəyirəm, amma təkbaşına bunu edə bilmirəm, Kiko deyir.
- Oldu, Kiko. Gəl birlikdə oynayaq, - Əl deyir.

- Saçına toxuna bilərəm? - Əl soruşur.
- Əlbəttə, - Kiko cavab verir.



- Burnuna toxuna bilərəm? - Əl soruşur.
- Bəli, - Kiko deyir.

- Əlinə toxuna bilərəm? - Əl soruşur.
- Bəli, - Kiko deyir.



- Alt paltarının altından sənə toxuna bilərəm? - Əl soruşur.
- XEYR. OLMAZ! - qışqırır Kiko.



- Əhsən, Kiko, - Əl deyir.
- Heç kimin sənə alt paltarının altından toxunmasına icazə vermə. Buna “Alt paltarı Qaydası” deyirlər. Əgər kimsə bunu etsə, mütləq etibar etdiyin birinə danış. Bunu sirr kimi saxlama.



- Salam, Əl! Xəyallar ölkəsinə getmək istəyirəm, ancaq oraya necə gedəcəyimi bilmirəm, - Kiko deyir.
- Əla, Kiko. Mən sənə yolu göstərərəm, – Əl deyir.
- Sadəcə carpayında uzan, gözlərini yum və özün ora çatacaqsan.



ZZZZZZZZZ, Kiko yatır.

Dünyada hər beş uşaqdan biri cinsi zorakılığın, o cümlədən cinsi sui-istifadənin qurbanı olur. Bu broşür Avropa Şurası tərəfindən uşaqlara qarşı cinsi zorakılığın qarşısının alınması üçün “ONE in Five” (“BEŞDƏN BİRİ”) kampaniyası çərçivəsində hazırlanmışdır.

Uşaqlara qarşı **cinsi zorakılığın qarşısını almaq** üçün **Avropa Şurasının** kampaniyası

one in five
un sur cinq

**Council of Europe** campaign
**to stop sexual violence**
against children

www.coe.int/oneinfive

Orijinal başlıq: Kiko and the Hand
© Avropa Şurası, 2011
© Avropa Şurası, 2026 - Azərbaycan versiyası

Konsepsiya: Grey Amsterdam
İstehsalat şirkəti: Not To Scale
İllüstrasiyalar: Punga
Təşəkkürlər: Rikky Schrever və Manon Sikkel

[illegible]

Bu, yatmazdan öncə oxunan kitabça uşaqlara "Alt paltarı Qaydası"-nı izah edir. Bu kitabçanı uşaqlarınıza oxuyandan sonra onlar “qəbul edilən” və “qəbul edilməz” toxunuş arasındakı fərqi anlayacaqlar.
Bu mövzu haqqında daha çox məlumat əldə etmək istəyirsinizsə, www.underwearrule.net saytına daxil olun.

AZE



UŞAĞINIZA ALT PALTARI QAYDASINI ÖYRƏDİN

www.underwearrule.net

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE